# Vaxtından əvvəl doğuş nədir?

Hamiləliyin **22-ci** həftəsindən **37-ci** həftəsinə qədər baş verən doğuşlar - **vaxtından əvvəl doğuş** sayılır.

**Hamiləlik (hestasiya) müddətindən asılı olaraq vaxtından əvvəl doğuşlar aşağıdakılara bölünür:**

1. Dərin vaxtından əvvəl doğulma **(22-27-ci həftələrdə)** - uşağın bədən çəkisi son dərəcədə kiçikdir **(1000 qramdan az)**.
2. Ağır vaxtından əvvəl doğulma **(28-33-cü həftələrdə)** - uşağın bədən çəkisi çox aşağıdır **(1500 qrama qədər)**.
3. Doğuş müddətinə yaxın **(34-37-ci həftələrdə)** - 70%-ə yaxın uşaqlar yetişkən doğulur.



✓ ***Hamiləliyin öz-özünə pozulması ehtimalı erkən dövrlərdə daha yüksəkdir.***

✓ ***Hamiləlik zamanı təqvim üzrə aybaşı günlərində xüsusilə ehtiyatlı olmaq vacibdir.***

# Vaxtından əvvəl doğuşun səbəbləri:

- Zədələnmə və ya güclü stress
- Tütün, alkoqol və ya narkotikdən istifadə
- Əvvəlki hamiləliklərin düşük və ya vaxtından əvvəl doğuşla nəticələnməsi
- Çoxdöllü hamiləlik
- Ciftin anomaliyaları (ayrılması, gəlişi)
- Hamiləliyin gestozu (yüksək qan təzyiqi və ya qıcolmalar)
- Hamilə qadının yaşının 18-dən az və 35-dən çox olması
- Hamiləlik dövründə qarın boşluğunda aparılan cərrahi əməliyyatlar
- Uşaqlığın və ya uşaqlıq boynunun patologiyaları (mioma, uşaqlıq boynunun çatışmazlığı)
- Əvvəllər 2 və ya daha çox abortun olması
- Qan azlığı (anemiya, trombositopeniya)
- Sidik yollarının infeksiyası
- Böyrək xəstəlikləri
- Yüksək qızdırma ilə keçən kəskin virus xəstəlikləri (qrip, soyuqdəymə)
- Süni mayalanma nəticəsində baş verən hamiləlik





# Vaxtından əvvəl doğuşun profilaktikası

**Vaxtından əvvəl doğuşun baş verməsinin qarşısını almaq üçün nə etmək lazımdır?**

1. Qadın məsləhətxanasında vaxtında (hamiləliyin 12-ci həftəsinə qədər) qeydiyyata düşmək.
2. Sahə ginekoloquna və ya mamaya öz sağlamlığınız haqqında dəqiq məlumat vermək, yaxud lazımi tibbi arayışları, keçmiş analizlərin nəticələrini təqdim etmək.
3. Qadın məsləhətxanasının həkimi tərəfindən təklif edilmiş bütün müayinələrdən keçmək.
4. Hamiləlik dövründə lazımi analizləri (qanın və sidiyin ümumi analizi, USM, infeksiyaların immun ferment analizləri) müntəzəm vermək.
5. Hamiləlik dövründə ətrafdakı kəskin virus infeksiyası olan xəstələrlə ünsiyyətdən çəkinmək.
6. Artıq fiziki gərginliyi azaltmaq və stresli vəziyyətlərdən uzaq olmaq.
7. Hamiləlikdövründə fiziki sağlamlığına daim diqqət etmək və bütün dəyişikliklər barədə ginekoloqa məlumat vermək.



## Vaxtından əvvəl doğuşun simptomları

Qarının aşağı nahiyəsində və ya bel nahiyəsində dincəlmədən sonra keçməyən ağrıları və qarının gərginləşməsini vaxtından əvvəl doğuş təhlükəsi kimi qəbul etmək lazımdır. Bu zaman uşaqlıq boynu bağlı olur və cinsi yollardan ifrazat axmır.

Qarın nahiyəsində tutma şəkilli və ritmik xarakterli ağrıları, onların cinsi yollardan ifrazat ilə (dölyanı maye, qan) müşayiət edilməsini vaxtından əvvəl doğuşun başlanması kimi qəbul etmək lazımdır.

## Vaxtından əvvəl doğuş təhlükəsi yarandıqda:

**Vaxtından əvvəl doğuşun əlamətləri aşkar olunduqda dərhal Təcili Tibbi Yardım xidmətini çağırmaq lazımdır.**

Doğum evinə və ya digər tibb müəssisəsinə **özbaşına çatmaq** təşəbbüsü vəziyyət üçün təhlükə yaratmaqla yanaşı, **doğuş gedişatının tezləşməsinə** də səbəb ola bilər.

**Təcili Tibbi Yardım xidməti** çağırıldıqdan sonra hamiləliyi nəzarətdə saxlayan ginekoloqa xəbər vermək və Təcili Tibbi Yardım briqadasının gəlməsini **gözləmək lazımdır.**

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H.Zərdabi küç., 96
431 12 72  430 52 85  office@isim.az
www.isim.az

Buklet "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramının həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 7.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

SN
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi



# Vaxtından əvvəl doğuş nədir?

**əhali üçün məlumat**

